# İlham  liyev Minsk Sammitind  çıxış etdi

Yazan
10.10.14 17:09 -



“MDB-nin potensialı tükənməyib. Bu, əməkdaşlıq, qarşılıqlı fəaliyyət, regional və beynəlxalq həyatın aktual məsələlərinin müzakirə olunduğu məkandır”.
AzNews.az trend-ə istinadən xəbər verir ki, bunu cümə günü Azərbaycan Prezidenti İlham Əliyev Minskdə MDB Dövlət Başçıları Şurasının iclasında çıxış edərkən deyib.
İlham Əliyev bildirib: "Biz uzun müddətdir birgə ünsiyyət saxlayan və vacib məsələləri həll edən həmkarlar kimi belə açıq və səmimi ab-havada bizi narahat edən bütün məsələləri müzakirə etməliyik".

Dövlət başçısının sözlərinə görə, Azərbaycan MDB-də iştirakına böyük önəm verir: "Biz hesab edirik ki, təşkilatımız çərçivəsində qarşılıqlı fəaliyyət, əlaqələndirmə, bir-birinin problemini daha yaxşı başa düşmə, həmçinin digər vacib məsələlərin həlli işində bir çox şeylərə nail olunub. Eləcə də MDB üzvü olan ölkələrin çoxu ilə ikitərəfli formatda aktiv qarşılıqlı fəaliyyət göstəririk. Hesab edirəm ki, ikitərəfli əlaqələr təşkilatımız çərçivəsində münasibətlərimizi möhkəmləndirir və biz bundan sonra da ikitərəfli əməkdaşlığın potensialını genişləndirməyə çalışacağıq".

Prezidentin sözlərinə görə, iqtisadiyyat və investisiyalar sahəsində yaxşı təcrübə var: "Bu gün, əlbəttə ki, narahatlıq doğuran məsələlərə diqqət ayrılır. Bunlar regional, beynəlxalq təhlükəsizliklə bağlı məsələlərdir".